**Təsdiq edilmişdir:**
Biznes mühiti və beynəlxalq
reytinqlər üzrə Komissiyanın sədri,
Azərbaycan Respublikası Baş nazirinin
müavini Samir Şərifov

21.02.2025-ci il

**Dünya Bankı Qrupunun "Business Ready" hesabatının "Biznesə daxilolma" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2025-ci il üzrə Yol Xəritəsi**

| Sıra №-si | Alt komponentlərin tələbləri | Görüləcək tədbirlər | Son icra müddəti | İcraçı qurumlar | Məsul şəxslər |
|---|---|---|---|---|---|
| **1. Biznesin təsis edilməsi qaydalarının keyfiyyəti** | | | | | |
| **1.1. Biznesin təsis edilməsi praktikasının qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla təkmilləşdirilməsi** | | | | | |
| 1.1.1. | Təsis payının özgəninkiləşdirilməsi barədə məlumatın qeydiyyat orqanı tərəfindən onlayn qaydada əldə edilərək hüquqi şəxslərin dövlət reyestrində qeydiyyatının həyata keçirilməsi | 1. Təsis payının özgəninkiləşdirilməsi ilə bağlı müqavilələrin (alğı-satqı, bağışlama, dəyişdirmə və s.) qeydiyyat orqanı tərəfindən inteqrasiya çərçivəsində onlayn qaydada Ədliyyə Nazirliyindən əldə edilərək kommersiya hüquqi şəxsin təsisçi dəyişikliyinin qeydiyyata alınması ilə bağlı qanunvericilik layihələrinin hazırlanaraq aidiyyəti üzrə təqdim olunması | 30.07.2025 | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti), Ədliyyə Nazirliyi | Hüsniyyə Abdullayeva, Elvin Məmmədli, Seymur Məmmədov |
| | | 2. Təsis payının özgəninkiləşdirilməsi ilə bağlı müqavilələrin (alğı-satqı, bağışlama, dəyişdirmə və s) qeydiyyat orqanı tərəfindən inteqrasiya çərçivəsində onlayn qaydada Ədliyyə Nazirliyindən əldə edilərək kommersiya hüquqi şəxsin təsisçi dəyişikliyinin qeydiyyata alınması ilə bağlı texniki imkanın yaradılması | Müvafiq normativ sənəd qüvvəyə mindikdən sonra 4 ay ərzində | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti), Ədliyyə Nazirliyi | Zaman Məmmədov, Hüsniyyə Abdullayeva |

| | | | | | |
|---|---|---|---|---|---|
| 1.1.2. | Qeydiyyat orqanı tərəfindən benefisiar mülkiyyətçi barədə məlumatların reyestrinin aparılması | Kommersiya qurumlarının dövlət qeydiyyatına alınması prosesində təqdim olunan sənədlər və məlumatlar əsasında benefisiar mülkiyyətçi (mülkiyyətçilər) barədə məlumatların hüquqi şəxslərin dövlət reyestrinə daxil edilməsi ilə bağlı texniki imkanın yaradılması | Müvafiq normativ sənəd qüvvəyə mindikdən sonra 4 ay ərzində | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti, Maliyyə Monitorinq Xidməti) | Zaman Məmmədov, Hüsniyyə Abdullayeva |
| **1.2. Biznesə daxil olmaq üçün normativ hüquqi bazada məhdudiyyətlər** | | | | | |
| 1.2.1. | Xarici investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin elektron dövlət qeydiyyatı prosesinin təkmilləşdirilməsi | 1. Xarici investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin elektron dövlət qeydiyyatı zamanı təsisçi xarici hüquqi şəxsin elektron apostil verilmiş xarici mənşəli sənədlərinin Beynəlxalq Xüsusi Hüquq üzrə Haaqa Konfransının təşviq etdiyi Elektron Apostil Proqramı vasitəsilə yoxlanılmaqla onların tərcüməsinin notarius tərəfindən informasiya sistemi üzərindən distant rəsmiləşdirilməsi və inteqrasiya çərçivəsində qeydiyyat orqanına təqdim olunması ilə bağlı texniki imkanın yaradılması | 31.10.2025 | Xarici İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti), Maliyyə Nazirliyi | Ruhlan Nəbiyev, Anar Məmmədov, Seymur Məmmədov, Elvin Məmmədli, Hüsniyyə Abdullayeva |
| | | 2. “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Qanuna edilmiş dəyişikliklərdən irəli gələrək Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən “Konsul leqallaşdırılması” informasiya sisteminin təsis edilməsi və həmin sistem üzərindən təqdim olunan sənədlərin qeydiyyat orqanına göndərilməsinədək həyata keçirilən bütün zəruri işlərin yekunlaşdırılması | Müvafiq normativ sənəd qüvvəyə mindikdən sonra 4 ay ərzində | Xarici İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti), Maliyyə Nazirliyi | Ruhlan Nəbiyev, Anar Məmmədov, Seymur Məmmədov, Elvin Məmmədli, Hüsniyyə Abdullayeva |
| **2. Biznesə daxilolma ilə bağlı rəqəmsal dövlət xidmətləri və informasiyanın şəffaflığı** | | | | | |
| **2.1. Biznesin təsis edilməsi və əməliyyatların başlanılması üçün xidmətlərin qarşılıqlı fəaliyyəti** | | | | | |
| 2.1.1. | Aidiyyəti dövlət orqanları ilə qeydiyyat prosesinin tərkib hissəsi olan sənədlərin mübadiləsi prosesinin əhatə | Fəaliyyəti xüsusi qanunvericilik aktları ilə tənzimlənən hüquqi şəxslərin qeydiyyata alınması ilə bağlı digər dövlət orqanları tərəfindən verilən sənədlərin (Mərkəzi Bankın ilkin razılığını təsdiq edən sənədin, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin məktubunun) elektron qaydada qeydiyyat orqanına təqdim olunması ilə bağlı texniki imkanın yaradılması | 30.08.2025 | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi), Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Mərkəzi Bank | Zaman Məmmədov, Hüsniyyə Abdullayeva, Namiq Dərgahov |

| | | | | | |
|---|---|---|---|---|---|
| | dairəsinin genişləndirilməsi | | | | |
| **2.2. Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı prosesləri, o cümlədən kommersiya hüquqi şəxslərin elektron dövlət qeydiyyatı sahəsində aparılmış islahatlar ilə bağlı məlumatlandırma, təbliğat və təşviqat işlərinin həyata keçirilməsi** | | | | | |
| 2.2.1. | Azərbaycanda biznesə başlama sahəsində yeniliklərlə bağlı hüquq/konsaltinq şirkətləri, sahibkarların ictimai təşkilatları və ekspert qrupları ilə işin qurulması, islahatlara dair ictimai iştirakçılığın genişləndirilməsi | 1.Startaplar, mikro və kiçik sahibkarlıq subyektləri ilə kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı mövzusu ilə bağlı məlumatlandırıcı və maarifləndirmə xarakterli tədbirlərin keçirilməsi | Rübdə 1 dəfə | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi) İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi | Hüsniyyə Abdullayeva, Nicat Əlizadə, Rövşən Məmmədov Ayxan Qədəşov |
| | | 2. Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı mövzusunda aparıcı hüquq/konsaltinq şirkətləri, ekspert qrupları və sahibkarların ictimai təşkilatları ilə qarşılıqlı əməkdaşlığın təşkili və məlumatlandırma xarakterli müzakirələrin keçirilməsi | Rübdə 1 dəfə | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti) | Hüsniyyə Abdullayeva, Rövşən Məmmədov |
| | | 3. Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı sahəsində yeniliklər barədə vergi ödəyicilərinin elektron kabinetinə məlumatların göndərilməsi | Rübdə 1 dəfə | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti) | Elçin Məmmədov, Hüsniyyə Abdullayeva |
| | | 4. Biznesə başlama sahəsində islahatlar barədə sosioloji tədqiqatların təşkili | Mütəmadi | İqtisadiyyat Nazirliyi (Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Dövlət Vergi Xidməti) | Nicat Əlizadə, Hüsniyyə Abdullayeva, Rövşən Məmmədov |
| 2.2.2. | Azərbaycanda biznesə başlama sahəsində yeniliklər barədə vergi ödəyicilərinin və ictimaiyyətin məlumatlandırılması | 1. Biznesə başlama sahəsində islahatlar barədə sosial mediada müvafiq təbliğat işlərinin təşkili | Mütəmadi | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti) İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi | Rövşən Məmmədov, Hüsniyyə Abdullayeva, Ayxan Qədəşov |
| | | 2. Biznesə başlama sahəsində görülən işlərlə bağlı mediada təbliğatın aparılması | Mütəmadi | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti) İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi | Rövşən Məmmədov, Hüsniyyə Abdullayeva, Ayxan Qədəşov |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 3. Problemli mövzularla bağlı proaktiv tədbirlərin təşkili və ictimaiyyətin məlumatlandırılması | Mütəmadi | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti) | Elçin Məmmədov, Nicat İmanov, Hüsniyyə Abdullayeva, Rövşən Məmmədov |